Dilqəm ƏHMƏD

***Dünyaya çar Rusiyasının təbəəsi olaraq gələn Azərbaycan Cümhuriyyətinin qurucusuMəhəmmədəmin Rəsulzadənin Rusiyada yaşadığı son şəhər Sankt Peterburq idi. 1922-ci ildə bu şəhəri müsavatçıların və tatarların yardımı ilə qayıqla tərk edən Məhəmmədəmin bəy həmin ilin dekabrın sonlarında artıq İstanbul şəhərinə varmışdı. Stalinin nəzarətində yaşadığı iki illik Moskva və Peterburq həyatı haqqında yeni bilgilərin (görkəmli alim Salavat İsakovun sayəsində) ortaya çıxdığı bu ərəfələrdə mən də bu şəhərdəki tədbirə dəvət edilmişdim.***

***

# Rəsulzadənin Rusiyadakı son mənzilində



***Aprelin 20-də saat 17-də "Moskva" hotelinin konfrans zalında Rəsulzadənin 140 illik yubiley tədbiri Rusiya və Azərbaycan himnlərinin oxunması ilə başladı. Ardınca Rəsulzadənin səs yazısı və 1918-ci ilə aid olan videgörüntüsü iştirakçılara təqdim olundu. Tamamilə dolu olan salonda çoxluğu gənclər təşkil edirdi. İlk çıxışları "Çinar" təşkilatının sədri Xeyransa Mirzəyeva və sədr müaviniÜlviyyə Abbasova etdilər. Onlar dövlət başçısının sərəncamına uyğun olaraq ölkə kənarında belə bir tədbiri keçirdikləri üçün sevincli olduqlarını bildirdilər. Daha sonra ilk söz tədbirin mühüm qonaqlarından Almira Tahircanovaya verildi. Almira xanım tatar mütəfəkkiri Musa Cərullah Bigiyevin nəvəsinin həyat yoldaşıdır. O, Musa əfəndi haqqında nadir fotoşəkillərdən ibarət təqdimatla çıxış etdi...***

(əvvəli ötən sayımızda)

Məsciddə dua və ibadətlərimizi etdikdən sonra yaxınlıqdakı siyasi tarix mövzulu muzeyə yollandıq. Zəngin tarixi bilgilərin olduğu bu muzeydə Leninə yoldaş olmasaq da, onun iş otağında şəkil çəkdirdik.

Artıq axşam düşmüşdü, xeyli enerji itirmişdik. Ülviyyə xanım bizi ləzzətli Azərbaycan təamları ilə mükafatlandırdı, sabahkı tədbirin planını gözdən keçirdik.



### Peterburqdan qaçış və Peterburqa gəliş

Məhəmmədəmin Rəsulzadə sağlığında sonuncu yubileyini 1954-cü ildə Ankarada qeyd etmişdi. 70 illik yubileyi münasibətilə dostları, silahdaşları onu evində ziyarət etmiş, "Azərbaycan" dərgisi xüsusi buraxılış hazırlamışdı. Bu il Rəsulzadənin ikiqat 70 illiyi, yəni 140 illiyidir. Bu münasibətlə Peterburqda yuxarıda adı çəkilən iki təşkilat yubiley tədbiri planlamışdı...

Aprelin 20-də saat 17-də "Moskva" hotelinin konfrans zalında Rəsulzadənin 140 illik yubiley tədbiri Rusiya və Azərbaycan himnlərinin oxunması ilə başladı. Ardınca Rəsulzadənin səs yazısı və 1918-ci ilə aid olan videgörüntüsü iştirakçılara təqdim olundu. Tamamilə dolu olan salonda çoxluğu gənclər təşkil edirdi. İlk çıxışları "Çinar" təşkilatının sədri Xeyransa Mirzəyeva və sədr müaviniÜlviyyə Abbasova etdilər. Onlar dövlət başçısının sərəncamına uyğun olaraq ölkə kənarında belə bir tədbiri keçirdikləri üçün sevincli olduqlarını bildirdilər. Daha sonra ilk söz tədbirin mühüm qonaqlarından Almira Tahircanovaya verildi. Almira xanım tatar mütəfəkkiri Musa Cərullah Bigiyevin nəvəsinin həyat yoldaşıdır. O, Musa əfəndi haqqında nadir fotoşəkillərdən ibarət təqdimatla çıxış etdi.

***Daha sonra rusiyali tarixçilər Aleksandr Serqeyevic Puncenkov, Vladimir Viktorovic Mixaylov və Sankt-Peterburq Dovlət Universitetinin müəllimi türkoloq Şahnaz Kamal məruzələrini oxudular.***

***Zəngin proqrama malik tədbirdə elmi çıxışlarla yanaşı milli rəqslər, ifalar da dinlənildi. "Çinar" rəqs ansamblı və "Naz" ansamblının, eləcə də Sankt-Peterburq Dövlət Konservatoriyasının tələbəsiTeymur Kazımovun ifası salondakıları heyrətləndirdi.***

Tədbirin dəvətlisi olaraq bəndəniz də Rəsulzadənin 52 illik mücadilə həyatını ehtiva edən təqdimatla çıxış etdim, sualları mümkün qədər cavablandırdım. Tərtibatçısı olduğum üç cildlik "Rəsulzadə xatirələri" kitabını Peterburqda Rəsulzadə yubileyini keçirmək kimi şərəfli işə imza atan "Çinar" təşkilatının kitabxanasına hədiyyə etdim.

***Tədbir boyunca salonu canlı tutmağı uğurla bacaran təşkilatçılardan Eldar Əlizadəyə də "Türkiyədəki Azərbaycan cəmiyyətləri" kitabımı təqdim etmək fürsəti oldu.***

Daha sonra Peterburqun aktiv azərbaycanlı xanımlarından Hicran Qurbanova çıxış etdi, arxivimiz üçün iki qiymətli kitab bağışladı.

Beləliklə, Rəsulzadənin bir zamanlar qısa müddət yaşadığı Peterburq şəhərində xatirəsi anıldı... Bu tarixi tədbirə və şəxsimi dəvətə görə Ülviyyə Abbasovaya və Eldar Əlizadəyə təşəkkür edirəm.

### Son söz əvəzi

Tədbirdən öncə daha bir tarixi məkanda oldum. Türkoloq Şahnaz Kamal Sankt Peterburq DövlətUniversitetinin Şərqşünaslıq fakültəsinə dəvət etdi. Vaxtilə Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Əlimərdan bəy Topçubaşının və bu fakültənin əsasını qoyan Mirzə Kazım bəyin olduğu bu universiteti görmək xoşbəxtlikdi. Şərqşünaslıq fakültəsinin girişində Mirzə Kazımbəyin kiçik büstü və fotoşəkli vardı. Fakültənin həyətini və içini gəzdikdən sonra Azərbaycan dili fənnindən dərs alan dörd tələbə ilə tanış oldum, söhbətləşdim. Azərbaycan dilini öyrənən tələbələrin maraqlı suallarını həvəslə cavablandırdım. Daha sonra donu yenicə açılan Neva çayı sahilini və İsa Peyğəmbərin Xilaskar Qanı Kilsəsini gəzdik...

***Aprelin 21-i səhər xoş xatirələrlə İstanbula qayıtdım.***

